# Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Daniel və şirlərin quyusu

Müəllif: Edward Hughes
İllüstrasiya edən: Jonathan Hay
Uyğunlaşdıran: Mary-Anne S.
Tərcümə edən: Günay Əsədova
Təqdim edən: Bible for Children
www.M1914.org

BFC
PO Box 3
Winnipeg, MB R3C 2G1
Canada

©2018 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Dara Babildə padşah idi.  O, ağıllı idi.  O, ölkəyə başçılıq etmək üçün padşahlığın bütün ərazisinə yüz iyirmi canişin təyin etdi.  Sonra onlara başçılıq etmək üçün üç vəzir seçdi.  Daniel o üç vəzirdən biri idi.



Padşah Dara Danielə o qədər çox hörmət edirdi ki, onu bütün padşahlıq üzərində başçı təyin etmək istəyirdi.



Digər vəzirlər və canişinlər paxıllıq edirdilər.  Onlar Danieli ölkənin idarə işlərində ittiham etmək üçün bir bəhanə axtarmağa başladılar.



Nə qədər çox çalışsalar da, heç bir bəhanə və təqsir tapa bilmədilər.  Çünki Daniel etdiyi bütün işlərdə padşaha sadiq idi.  Həmçinin, o çox ehtiyatlı və ağıllı idi.  Həmişə bacardığı qədər ən yaxşını etməyə çalışırdı.



Bu paxıl adamlar Danieli ittiham etmək üçün yalnız bir yolun olduğunu bilirdilər. Onlar bilirdilər ki, yer üzərində heç bir şey onu İsrailin Allahına ibadət etməkdən saxlaya bilməz.






Danielin düşmənləri plan qurdular. Onlar padşahın imza atması üçün yeni qanun çıxartdılar. Qanunda deyilirdi ki, hamı yalnız padşah Daraya dua etməlidir. Buna itaət etməyən hər bir kəs şirlərin quyusuna atılacaqdı!

Padşah Dara yeni qanuna imza atdı.



Yeni qanunun Daniel üçün
heç bir əhəmiyyəti yox idi.
O həmişə etdiyi şeyi etdi.
O, gündə üç dəfə öz açıq
pəncərəsinin yanında diz
çökürdü və göylərin Allahına
dua edirdi.







Paxıl vəzirlər bunu padşaha deməyə tələsdilər.  Padşah Daranın Danieli zindana atmaqdan başqa bir seçimi yox idi.  Qanuna əməl edilməli idi.  Daniel ölməli idi.  Padşah çox çalışdı, amma o, qanunu dəyişdirmək üçün yol tapa bilmədi.

Daniel şirlərin quyusuna atılmaqla ölümə məhkum edildi. Daniel ac şirlərin yanına atılmazdan əvvəl, padşah Dara ona dedi: “Daim qulluq etdiyin Allahın səni qurtarsın!”



Padşah o gecəni yata bilmədi.  Səhər açılanda padşah yerindən qalxıb tələsik şirlərin olduğu quyunun yanına getdi.





Danieli çağırıb dedi: “Ey Daniel, var olan Allahın qulu! Daim qulluq etdiyin Allahın səni şirlərdən qurtara bildimi?” Bəlkə o, bir cavab gözləmirdi. Amma Daniel cavab verdi!

Daniel padşaha dedi: “Qoy padşah həmişə sağ olsun! Allahım Öz mələyini göndərib şirlərin ağzını bağladı və onlar mənə toxunmadı, çünki mənim Allahın önündə təqsirsiz olduğum bilindi.  Ey padşah, sənə qarşı da heç bir cinayət etməmişəm”.



Padşah Dara çox sevindi!  Danieli quyudan çıxarmağı əmr etdi.



Padşah bildi ki,
Allah Danieli qurtardı
və Danielin düşmənləri
Allahın düşmənləri idi.
O, sərəncam verdi və
pis qanuna imza
atmaq üçün ona
hiylə quranların
hamısını şirlərin
quyusuna atdılar.
Şirlər onları
yedi.



Padşah Dara istəyirdi ki, bütün dünya Göylərin Allahının onun sadiq qulu Danieli qoruduğunu bilsin.  Padşah hamının yaşayan Allaha ibadət etməsini əmr edən məktub yazdı.  Padşah Danieli şöhrətə və başçılığa bərpa etdi.



Daniel və şirlərin quyusu

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Daniel 6

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

34

60

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**